<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>AZH150, Azərbaycan tarixi, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Tarix və Arxeologiya Departamenti</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-ci tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris<br>edən müəllim (lər)</td><td>Samirə Hadıyeva</td></tr>
<tr><td>E-mail:</td><td>samira1997hadiyeva@gmail.com</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>II-IV günlər</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Müəllimin təyin etdiyi vaxtda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü<br>(məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və<br>əlavə ədəbiyyat</td><td colspan="2">Əsas dərsliklər:<br>1. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). İradə Nuriyeva. Bakı: Elm və təhsil, 2025.<br>2. Azerbaycan Tarihi (Millet, Devlet ve Siyaset). Nesib Nesibli. Ankara: Altınordu, 2019.<br>3. Azerbaycan Tarihi (İlk Çağlardan XX. Yüzyıl Başlarına Kadar). Mahmudİsmayılov. İstanbul: IQ Kültür Sanat, 2014.<br>4. Türk Kafkası’nda Siyasi ve Etnik Yapı (Eski Çağlardan Günümüze AzerbaycanTarihi). İsmail Mehmetov. İstanbul: Ötüken, 2009.<br>5. Azərbaycan tarixi, I cild (Ən qədim zamanlardan XX əsrədək). Z. Bünyadovunvə Y. Yusifovun redaktəsilə. Bakı, 2005.<br>6. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər) red. prof. Süleyman Əliyarlı. Bakı, 2009<br>7. Azərbaycan tarixi. Red. Mehman Abdullayaev. Bakı, Bakı Universiteti, 2014<br>8. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Həsən Qəniyev. Bakı, “Elm və Təhsil” 2019.<br>9. Nəcəfli, T., & Dədəyev, B. (2015). Azərbaycan tarixi: Dərs vəsaiti. Bakı: Qafqaz Universiteti. ISBN 978-9952-468-42-7.</td></tr>
</table>

<table>
<tr><td></td><td>Əlavə mənbələr:<br><br>10. Azərbaycan tarixi üzrə qaynaqlar, red. S.Əliyarlı Bakı, 2007.<br>11. Azərbaycan tarixi xəritələrdə: Atlas. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi. (2022).<br>12. Solmaz Qaşqay. Manna dövləti. Bakı 1993.<br>13. Fəridə Məmmədova. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası, Bakı, 1993(IV fəsil, §1-2).<br>14. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, Bakı, 2004<br>15. Azərbaycan tarixi (Oçerklər). Qəzənfər Rəcəbli. Bakı: Elm və Təhsil – 2013<br>16. Azərbaycan tarixi atlası. AMEA Tarix İnstitutu. Bakı 2007<br>17. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik (M.Abdullayevin red.). Bakı: Bakı Universiteti nəşriyyatı 2014<br>18. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. İkram Ağasıyev və Şirxan Səlimov. Bakı 2017<br>19. Cəmil Həsənli. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) Bakı, 2015.<br>20. Sara Aşurbəyli. Şirvanşahlar dövləti .Bakı, Avrasiya press,2006, 416 s.<br>21. Boran Əziz Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri, Bakı, Azərnəşr, 2008, 224 s.</td></tr>
<tr><td>Kursun vebsaytı</td><td>https://www.ebooks.az/category_historyaz.html<br>https://ebooks.az/category_historyaz.html<br>www.azerbaijan.az;<br>www.aztarix.azeriblog.com;<br>www.azerbaycanli.org<br>www.history.az/Kitabxana/Kitablar<br>www.kitabyurdu.org/kitab/tarix /</td></tr>
<tr><td>Kursun təsviri</td><td>Qədim dövrlərdən yaxın günlərə qədər keçən minlərlə illik tarixi proses, Azərbaycan ərazisində Azərbaycan tarixi kimi adlanır. Bu coğrafiyada yaşamış birbirindən fərqli xalqlar və onlar haqda bugün bizlərə məlum olan bütün siyasi, iqtisadi, hərbi və sosial fəaliyyətlər, bu dərsin mövzularını təşkil edir. Bu elmi tədris edərkən nəzərə alınan ən vacib məqamlardan biri, milli şüur ətrafında formalaşan bir tarix konsepti</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | yaradmaqdır. Mümkün olduğu qədər tarixdə qaranlıq və müəmmalı qalan məsələlərin aydınlaşdırılması, bu fənnin tədrisində əsas məqsədimiz olacaqdır. Tarix elminin hər daim özünü yenilədiyi nəzərə alınaraq lazım olduqca dərsin gedişatında müxtəlif dəyişikliklər edilə bilər. Bu dərs, tələbələrin elmi anlayışının formalaşmasına və tələbələrin fənn haqdakı dünyagörüşünün güclənməsinə öz töhfəsini verəcək. Bundan əlavə, hər bir Azərbaycan vətəndaşının, Azərbaycan tarixindəki müəyyən məsələlərə bələd olmasının vacib olduğunu nəzərə alaraq, tələbələr üçün bu istiqamətdə tədris planı həyata keçiriləcək. | | |
| **Kursun məqsədləri** | • Azərbaycan tarixinin ən qədim dövrdən müasir dövrə qədər inkişaf mərhələləri haqqında sistemli və elmi biliklər formalaşdırmaq;<br>• Tarixi mənbələr, arxeoloji materiallar və elmi faktlar əsasında Azərbaycan tarixinin öyrənilməsi bacarıqlarını inkişaf etdirmək;<br>• Azərbaycan dövlətçiliyinin yaranması, təşəkkülü və inkişaf mərhələləri haqqında dolğun təsəvvür yaratmaq;<br>• Milli dövlətçilik ideyası, vətənpərvərlik və vətəndaşlıq mövqeyinin formalaşdırılmasına töhfə vermək;<br>• Tələbələrdə tarixi hadisələri müqayisəli təhlil, ümumiləşdirmə və obyektiv qiymətləndirmə bacarıqlarını inkişaf etdirmək;<br>• Azərbaycanın müasir dövrdə regional və beynəlxalq münasibətlər sistemində rolunu dərk etdirmək. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənnin ümumi tədrisi prosesində tələbələrdə:**<br>- Azərbaycan torpaqlarının qədim tarixi haqda tələbələrdə dəqiq məlumat və dərin təsəvvür yaranacaq.<br>- Azərbaycanın dünya və şərq tarixindəki mühüm mövqeyi lazım olduğu formada tələbələrə çatdırılacaq.<br>- Azərbaycan tarixinin mərhələləri və bu mərhələlərə keçidlərin tarixi arxa planı aydınlaşdırılacaq.<br>- Azərbaycan xalqının yaranmasında rolu olan amillər izah ediləcək.<br>- Azərbaycan coğrafiyasının tarixi əhəmiyyəti ətraflı şəkildə öyrəniləcək.<br>- Azərbaycan tarixindəki böyük şəxsiyyətlər, tələbələrə daha yaxından tanıdılacaq. | | |
| **Tədris metodları** | Mühazirə | | **x** |
| | Qrup işi | | **x** |
| | Praktiki tapşırıqlar | | **x** |
| | Praktiki məsələnin təhlili | | **x** |
| | Digər | | **x** |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |

| | | | |
|---|---|---|---|
| | Aralıq imtahanı | Aprel | 30 bal |
| | Təqdimat | Semestr ərzində | 10 bal |
| | Quiz | Aralıq imtahanından əvvəl<br>Final imtahanından əvvəl | 10 bal<br>(5 + 5) |
| | Aktivlik | Semestr ərzində | 5 bal |
| | Davamiyyət | Final imtahanından əvvəl | 5 bal |
| | Final imtahanı | İyun | 40 bal |
| | Yekun | | 100 |

**Qaydalar (Tədris siyasəti və davranış)**

**Yoxlama işi (Quiz)**

Semestr ərzində **iki dəfə** yoxlama işi keçirilir. Quizin vaxtı müəllim tərəfindən müəyyən edilir. Quizə hansı mövzuların daxil ediləcəyi, fənnin müəllimi tərəfindən tələbələrə ən az 2 həftə əvvəl deyilir. Bundan başqa sual tipi, sual sayısı və digər məsələlər haqqında da məlumat veriləcək. Dekanlığa və müəllimə əvvəlcədən məlumat verilən səbəblərdən ötürü quizdə iştirak etməyən / edə bilməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər. Hər quiz **5 bal** üzərindən qiymətləndirilir.

**Aktivlik**

Hər dərs mövzusuna uyğun olaraq müzakirələr və debatlar aparılacaqdır. Tələbənin həmin müzakirə və debatlarda fəal iştirak etməsi gözlənilir. Aktivlik **5 bal** üzərindən qiymətləndirilir.

**Təqdimat**

Tələbələr tələbə sayına uyğun olaraq 4-4 və ya 5-5 olmaqla qruplara ayrılacaqlar. Hər qrupa fərqli mövzu təyin olunacaq. Akademik təqvimdə hər qrup üçün müəyyən edilmiş tarixlərdə təqdimatlar tələbələr tərəfindən auditoriyada həyata keçiriləcək.

**Təqdimatın formatı: Tarixi-mədəni irs layihəsi / Tarixi abidə üzrə tədqiqat**

Hər bir qrup seçilmiş mövzuya uyğun olaraq **müvafiq tarixi abidəyə səfər** edəcək. Səfər zamanı:Abidənin **tarixi** və **günümüzdəki vəziyyəti** haqqında məlumatlar toplanacaq; Abidəyə aid **fotoşəkillər çəkiləcək**; Toplanan materiallar əsasında **sənədli xarakterli təqdimat** hazırlanacaqdır. Qala və ya abidə haqqında verilən tarixi məlumatlar **elmi və etibarlı mənbələrə əsaslanmalı**, mənbələr təqdimat zamanı **göstərilməlidir**. Qrupdakı **bütün üzvlərin fəal iştirakı** vacibdir. Təqdimat zamanı hər bir üzv öz üzərinə düşən hissəni təqdim etməli və müzakirədə iştirak etməlidir. Təqdimatçıların sayından asılı olaraq, **hər qrup üçün ümumi vaxt təqdimat və müzakirə daxil olmaqla 45 dəqiqə** təşkil edəcək. Qiymətləndirmə zamanı yalnız müəllimin deyil, **dinləyici olan digər**

| | |
|---|---|
| | **tələbələrin rəy və fikirləri** də nəzərə alınacaq.<br><br>**Qruplar və təqdimat mövzuları:**<br><br>I qrup: Şirvanşah- saray kompleksi<br>II qrup: Qız qalası<br>III qrup: Ramana qalası<br>IV qrup: Mərdəkan qalası<br>V qrup: Atəşgah məbədi<br><br>**Qiymətləndirmə meyarları:**<br><br>▪ Tarixi məzmunun düzgünlüyü və elmi əsaslılığı<br>(abidənin tarixi, dövrləri, funksiyası, əhəmiyyəti) **– 3 bal**<br>▪ Mənbələrdən istifadə səviyyəsi<br>(elmi ədəbiyyat, arxiv materialları, etibarlı internet mənbələri və düzgün istinad) –<br>**2 bal**<br>▪ Abidəyə dair yerində aparılmış müşahidə və sənədləşmə<br>(fotoşəkillər, abidənin bugünkü vəziyyətinin təsviri, şəxsi müşahidələr) **– 2 bal**<br>▪ Təqdimatın forması və çatdırılması<br>(nitqin aydınlığı, məntiqi ardıcıllıq, vizual materiallardan istifadə, auditoriya ilə ünsiyyət) – **2 bal**<br>▪ Qrup üzvlərinin fəal iştirakı və suallara cavab bacarığı<br>(bütün üzvlərin iştirakı, müzakirəyə qoşulma, verilən suallara əsaslandırılmış cavablar) – **1 bal**<br>**Cəmi: 10 bal**<br><br>**Dərsə gecikmələr və ya digər dərs pozuntuları**<br><br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayıb yazılır. Lakin tələbə dərsə buraxılır. Dərsə gecikmə halları sıxlıq təşkil edərsə dekanlığa məlumat verilir. Dərs zamanı çox zəruri olmadıqca sinif otağından çıxmaq qəti qadağandır. Belə halların tez-tez baş verməsi yol verilməzdir. Dərsdə mobil telefonlardan ya da digər elektronik cihazlardan istifadə etmək qəti qadağandır. Bundan əlavə dərs zamanı başqa dərslərlə bağlı materiallardan istifadə etmək olmaz.<br><br>**İmtahanlar**<br><br>Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və yekun |

imtahanı mövzuları tələbələrə imtahandan öncə bildirilir. Sual tipləri və sual sayıları haqda da tələbələrə məlu-mat verilir. Aralıq imtahanında düşən suallar yekun imtahanda təkrarlanmır. İmta-handa hər qrup üçün ən az iki ayrı variant hazırlanır. Variantlar arasındakı balans, o cümlədən sualların çətinliyi məsələsinə diqqət göstərilir. Aralıq imtahanı 30, final imtahanı 40 baldır.

**İmtahan qaydalarının pozuntuları**

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürülmələr qadağandır. İmtahan zamanı imtahan nəzarətçisinin dediklərinə tamolaraq əməl edilməlidir. Bu qaydalara riayət etməyən tələbələr imtahan otağından çıxarıla və ya tələbələrin imtahan işi ləğv oluna bilər. İmtahanı ləğv olunan tələbəyə 0 (sıfır) verilir. Tələbənin imtahandan çıxarılması və ya imtahan işinin ləğv olunması, imtahan nəzarətçisinin ixtiyarındadır. İmtahan zamanı hər-bir tələbənin tələbə bileti yanında olmalıdır. Bundan əlavə imtahan zamanı heç-bir dəftər, kitab, çanta və s.

**Fənni bitirmək qaydası**

Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Tələbə kəsildiyi fənni növbəti semestr və ya növbəti il təkrar götürə bilər.

**Tələbələrin davranış qaydaları**

Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan, planşetlərdən və digər bütün elektron cihazlardan istifadə etmək qəti qadağandır. Buna əməl etməyən tələbələr sinif otağından çıxarılacaq.

**Davamiyyət**

Tələbələrin dərsdə iştirak etməsi məcburidir. Dərsə gəlməyən və ya dərsə 10 dəqiqədən çox gecikən tələbələrə qayıb yazılır. Qayıb faizi 25%-dən yuxarı olan tələbələr final imtahanına buraxılmır. Bundan başqa hər 2 qayıb üçün tələbənin davamiyyət balından bir bal çıxılır. Davamiyyət üçün ümumilikdə 5 bal nəzərdə tutulmuşdur.

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| **1.** | | **Giriş. Azərbaycanda icma cəmiyyəti və** | Dərsliklər və əlavə ədəbiyyat/əsas |

| | | | |
|---|---|---|---|
| | | **qədim Azərbaycan dövlətləri**<br><br>• Giriş qeydləri və kursun strukturunun izahı, Azərbaycan tarixinə dair kursun əhəmiyyəti, Azərbaycan tarixinin qaynaqları.<br>• "Azərbaycan" adının yaranması prosesi və keçdiyi mərhələlər<br>• Azərbaycanda ibtidai icma cəmiyyəti və onun mərhələləri. Azərbaycan ərazisində erkən dövlət qurumları. Manna dövləti<br>• Azərbaycan torpaqları Midiya və fars Əhəmənilər dövlətlərinin tərkibində. Sak-Massagetlərin Azərbaycan torpaqlarına gəlməsi. | dərsliklər: 1-5-7, müvafiq bölmələr və fəsil 1.<br><br>Növbəti dərs üçün **yaradıcı tapşırıq:** "Tarix mənim ixtisasımla necə bağlıdır?" mövzusunda kiçik təqdimat. |
| **2.** | | **Atropatena və Albaniya dövlətləri. Azərbaycanın Xristianlıq dövrü və mədəniyyəti. Azərbaycan erkın orta əsrlər dövründə (III-VII)**<br><br>• Makedoniyalı İsgəndərin ölümündən sonra Azərbaycan torpaqları: Atropatena;<br>• Qafqaz Albaniyası antik dövrdə<br>• Azərbaycan ərazisində təkallahlı dinlər: Xristianlıq.<br>• III-IX əsrlərdə Azərbaycan ərazisində sosial-iqtisadi vəziyyət. Feodal istehsal üsulunun meydana çıxması və təşəkkülü.<br>• Atropatena və Albaniya Sasanilər dövlətinin tərkibində<br>• Sasani-Bizans müharibələri və Azərbaycan | Dərsliklər: 1-4-5-7, müvafiq bölmələr və fəsil 2.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: Qafqaz Albaniyası xristian abidələri haqqında təqdimat |
| **3.** | | **Azərbaycan Ərəb xilafəti dövründə. Azərbaycanın İslam dövrü və mədəniyyəti. Azərbaycanda müstəqil dövlətlərin yaranması (IX-XI əsrlər).**<br><br>• Azərbaycanda Ərəb hakimiyyəti<br>• İslam dininin yayılması və onun tarixi əhəmiyyəti<br>• Ərəb əsarətinə qarşı azadlıq mübarizəsi.<br>• Xürrəmilik hərəkəti və Babək. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-5-7, müvafiq bölmələr və fəsil 2-3<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: "Babək" filmi haqda tələbələrin fikirləri. |

| | | | |
|---|---|---|---|
| | | • Xilafətin zəifləməsi: Şirvanşahlar dövləti;<br>• İlk İslam-Türk sülaləsi Sacilər;<br>• Salarilər, Şəddadilər və Rəvvadilər dövlətləri. | |
| **4.** | | **Azərbaycan intibah dövründə. Azərbaycan Səlcuq imperiyasının hakimiyyəti dövründə. Azərbaycan Atabəylər dövləti. (IX -XIII əsrin əvvəlləri)**<br>• IX-XI əsr Azərbaycan tarixinin başlıca problemləri<br>• Səlcuq türkləri və Azərbaycan əhəmiyyəti<br>• Azərbaycan Atabəylər dövləti<br>• Azərbaycan ilk İntibah mədəniyyəti. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-2-5-7, müvafiq bölmələr və fəsil 3.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: “Nizami”, “Dədə Qorqud” filmləri və “Xaqani” sənədli filmi haqda tələbələrin fikirləri. |
| **5.** | | **Azərbaycan XIII-XV əsrlərdə**<br>• Monqolların Azərbaycana gəliş səbəbləri;<br>• Azərbaycanda monqol əsarəti. Hülakülər dövləti<br>• Qızıl Orda xanı Toxtamış və Əmir Teymurun Azərbaycana yürüşləri. Şirvanşah I İbrahim<br>• Azərbaycan XV əsr dövlətləri<br>• XIII-XV əsrlərdə Azərbaycan ərazisində sosial-iqtisadi vəziyyət. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3-4-7, müvafiq bölmələr və fəsil 4.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: Qrup işi olaraq infoqrafik hazırlamaq. Mövzu: Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranma səbəbləri və əsas siyasi hadisələr. |
| **6.** | | **Səfəvi dövləti (XVI-XVII əsrlər)**<br>• Səfəvilərin Ərdəbil hakimliyi. Səfəvi dövlətinin yaranmasını şərtləndirən amillər.Qızılbaş ideologiyası.<br>• XVI-XVII əsr Səfəvi-Osmanlı müharibələri və Azərbaycan.<br>• XVI-XVII əsrlərdə Azərbaycan | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 2-4-7, müvafiq bölmələr və fəsil 5.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: |

| | | | |
|---|---|---|---|
| | | torpaqlarında sosial-iqtisadi və mədəni həyat | Səfəvilərin mənşəyi haqqında mövcud tarixi versiyalar üzərində araşdırma. |
| **7.** | | **XVIII əsrin birinci yarısında Azərbaycan torpaqlarında ictimai və siyasi vəziyyət**<br>• XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin tənəzzülü<br>• Azərbaycanın beynəlxalq rəqabət meydanına çevrilməsi<br>• I Pyotrun Xəzəryanı bölgələri işğal etməsi<br>• Azərbaycan torpaqları Nadir şahın hakimiyyəti dövründə. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər:<br>1-2-3-7, müvafiq bölmələr və fəsil 6.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: Təsəvvür edin ki, siz XVIII əsrin əvvəllərində yaşayan bir azərbaycanlısınız. Qısa bir **məktub** yazın və bu suallara cavab verin:<br>1. Səfəvi dövlətinin zəifləməsi gündəlik həyatınıza necə təsir edib?<br>2. I Pyotrun Xəzəryanı bölgələri işğalı əhalidə hansı hisslər doğurub? |
| | | **Aralıq imtahanı** | |
| **8.** | | **Azərbaycan xanlıqları**<br>• Azərbaycan ərazisində xanlıqların yaranması.<br>• Azərbaycanın yenidən birləşdirilməsi üçün aparılan mübarizə və nəticələri<br>• Xanlıqların daxili və xarici siyasəti. Qacarın yürüşləri<br>• Azərbaycan xanlıqlarının sosial – iqtisadi vəziyyəti.<br>• İnzibati-idarə sistemi | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər:<br>1-5-7, müvafiq bölmələr və fəsil 7.<br><br>Növbəti dərs üçün tapşırıq: Xanlıqlar haqqında infoqrafik hazırlanması. |

| | | | |
|---|---|---|---|
| | | • XVIII əsr Azərbaycan mədəniyyəti | |
| **9.** | | **Azərbaycan XIX əsrdə. Cənubi Azərbaycan**<br>• XVIII-əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti<br>• Rusiya-Azərbaycan müharibəsi. İşğal və müqavilələr<br>• I Rusiya-İran müharibəsi. Gülüstan müqaviləsi<br>• Gülüstan müqaviləsindən sonrakı dövrdə. Azərbaycan beynəlxalq münasibətlərdə<br>• II Rusiya-İran müharibəsi. Türkmənçay müqaviləsi<br>• XIX əsrin 30-40-cı illərində Azərbaycan ərazisində sosial-iqtisadi münasibətlər. Rus müstəmləkə zülmünə qarşı üsyanlar<br>• XIX əsrin ikinci yarısında Azərbaycan ərazisində aqrar və burjua islahatları. Kapitalist münasibətlərinin təşəkkülü.<br>• XIX əsrdə çarizmın köçürmə siyasəti<br>• XIX əsr Azərbaycan mədəniyyəti<br>• Cənubi Azərbaycan XIX əsrdə | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3-7 müvafiqbölmələr və fəsil 8.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: Gülüstan və Türkmənçay müqavilələrinin bəndlərinin müzakirəsi. Müqavilənin 3 əsas maddəsini dəyişərək Azərbaycanın gələcəyini qoruyan alternativini yaz. |
| **10.** | | **Azərbaycan XX əsrin ilk onilliklərində (1901-1918)**<br>• XX əsrin əvvəllərində Azərbaycanda ictimai – siyasivəziyyət. Siyasi partiya və təşkilatların yaranması<br>• Azərbaycan I Dünya müharibəsi illərində<br>• 1917-1918-ci ilin əvvəllərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət. 1918-ci il mart soyqırımı<br>• Azərbaycan deputatları Rusiya Dövlət Dumalarında | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3-7 müvafiq bölmələr və fəsil 9.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: Milli şüurun oyanmasında rolu olan şəxsiyyətlər, qəzet və jurnallar ilə bağlı qrup təqdimatı. |

| | | | |
|---|---|---|---|
| | | • Cənubi Azərbaycan 1905-1911-ci illər Məşrutə inqilabı dövründə | |
| **11.** | | **Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və ilk addımları (1918-1920)**<br>• Zaqafqaziya Seyminin süqutu. Azərbaycan<br>• Demokratik Respublikasının yaradılması. İstiqlal bəyannaməsi<br>• M.Ə. Rəsulzadənin milli hakimiyyət fikirləri<br>• Batum konfransının Azərbaycan üçün nəticələri.Batum müqavilələri<br>• 1918-ci ilin iyun böhranı və nəticələri<br>• Bakı XKS-nın Gəncəyə hücum planı və onun iflası<br>• Bakı XKS-nin süqutu.“ Sentrokaspi” diktaturası<br>• Nuru Paşanın Azərbaycana gəlişi və “Qafqaz İslam Ordusu”.Bakının azad edilməsi.<br>• Milli dövlət quruculuğu. Azərbaycan parlamenti.<br>• Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti<br>• Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə onun yeri<br>• Şeyx Məhəmməd Xiyabanı hərəkatı | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-2-5-7, müvafiq bölmələr və fəsil 10.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: “Əgər sən 1919-cu ildə AXC parlamentinin üzvü olsaydın, hansı qanun layihəsini təklif edərdin?”<br><br>Alternativ tapşırıq: M.Ə.Rəsulzadənin **“Əsrimizin Səyavuşu”** kitabının təhlili. |
| **12.** | | **Azərbaycan XX əsrin 20-30-cu illərində**<br>• 1920-ci ilin aprel işğalı və Azərbaycanda kommunist hakimiyyətinin qurulması. Sovethakimiyyətinə qarşı müqavimət hərəkatı<br>• Azərbaycanda həyata keçirilən birtərəfli sənayeləşdirmə və kollektivləşdirmə siyasəti,onun nəticələri<br>• Formal müstəqilliyin ləğvi və | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3-4-7, müvafiq bölmələr və fəsil 11.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: Repressiya qurbanları ilə bağlı qrup işi. |

| | | | |
|---|---|---|---|
| | | respublikanın ərazibütövlüyünə qəsd. DQMV və Naxçıvan MSSR- in yaranması<br>• Azərbaycanda sosialist yenidənqurmaları, onların sosialiqtisadi və siyasi nəticələri. Kütləvirepressiyalar<br>• Azərbaycanda SSR-də mədəni quruculuq | |
| 13. | | **Azərbaycan II dünya müharibəsidövründə (1939-1945-ci illər). Cənubi Azərbaycan**<br>• II Dünya müharibəsinin başlanması və müharibəedən dövlətlərin Azərbaycana dair planları<br>• Azərbaycan döyüşçüləri döyüş cəbhələrində, antifaşist müqavimət və partizan hərəkatlarında<br>• Faşizm üzərində qələbədə Bakı neftinin rolu<br>• XX əsrin 40-60-cı illərində Azərbaycanın sosial-iqtisadi və siyasi əziyyəti<br>• Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatı və Seyid Cəfər Pişəvəri<br>• Azərbaycanlıların Ermənistandan-tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası<br>• Azərbaycanda SSR XX əsrin 70-80-ci illərində.<br>• "Yenidənqurma" şəraitində milli münasibətlərin kəskinləşməsi<br>• İran İslam İnqilabı və Cənubi Azərbaycan | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3-5-7 müvafiq bölmələr və fəsil 12,13.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: **"Mən sizi dünyalar qədər sevirdim"** filminin izlənməsi və tələbələrin fikirləri. |
| 14. | | **Müstəqil Azərbaycan respublikası: Dövlət müstəqilliyinin bərpa olunması və onun möhkəm- ləndirilməsi uğrunda mübarizə. (1991-1995-ci illər)**<br>• Qondarma "Dağlıq Qarabağ" məsələsi və onun Azərbaycanın ictimai-siyasi durumuna təsiri | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3-4-7 müvafiq bölmələr və fəsil 14,15.<br><br>Növbəti dərs üçün yaradıcı tapşırıq: "20 |

| | | | |
|---|---|---|---|
| | | • Dövlət müstəqilliyinin bərpa edilməsi. Azərbaycan müstəqilliyin ilk illərində<br>• Milli qurtuluş. Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi<br>• Azərbaycan Respublikasının yeni neft strategiyası. “Əsrin müqaviləsinin” imzalanması<br><br>**Müstəqil Azərbaycan respublikası: Azərbaycan Respublikası XX əsrin 90-cı illərinin ikinci yarısı-XXIəsrin ilk onilliklərində.**<br><br>• Müstəqil Azərbaycan Respublikası Konstitusiya-sının qəbul edilməsi .<br>• Heydər Əliyevin Azərbaycanda ikinci prezidentliyi dövrü | Yanvar faciəsi” ilə bağlı infoqrafik hazırlamaq. |
| **15.** | | **Azərbaycanın müasir inkişaf dövrü. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası**<br><br>• İlham Əliyev və Azərbaycanın sürətli inkişaf strategiyası<br>• İlham Əliyevin prezidentliyi dövründə sosial iqtisadi inkişaf planlarının tətbiqi<br>• Müasir dövr Azərbaycan mədəniyyəti<br><br>**Ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizə. II Qarabağ (Vətən) müharibəsi və onun nəticələri. Antiterror əməliyyatları**<br><br>• II Qarabağ müharibəsi və nəticələri. Beynəlxalq reaksiya<br>• 2023-cü il 19-20 sentyabr tarixlərində Qarabağda keçirilən lokal xarakterli antiterror əməliyyatları<br>• Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri və “Böyük Qayıdış” proqramı. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3-7 müvafiqbölmələr və fəsil 15.<br><br>Növbəti dərs üçün tapşırıq: “Müasir dövrdə Azərbaycan mədəniyyətinin dünyada tanıdılması istiqamətində hansı addımlar atıldığını araşdırın.” |
| | | **Final imtahanı** | |